**Əlavə 1**

**Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalının**
**ƏSASNAMƏSİ**

## I. Bədii yaradıcılıq müsabiqə - festivalının keçirilməsinin əsaslandırılması və məqsədi

Bədii yaradıcılıq müsabiqə - festivalının keçirilməsinin əsas məqsədi tələbələri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək, mədəni həyat tərzinin formalaşdırılması işinə kömək göstərmək, incəsənət və mədəniyyətimizin ayrı-ayrı sənət növləri üzrə istedadlı gənclərin üzə çıxarılması, onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək verməkdir.

## II. Müsabiqə - festivalın şərtləri və keçirilmə qaydası

1. Müsabiqə - festivalda respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin (musiqi təmayüllü ali və orta ixtisas təhsili müəssisələri istisna edilməklə) əyani şöbələrində təhsil alan tələbələrdən ibarət özfəaliyyət yaradıcılıq kollektivləri, dərnək və studiyaları, onlardakı solo ifaçılar, həvəskar müğənni, rəqqaslar, bədii qiraətçi, musiqiçilər, həmçinin orkestr və ansambllar (xor, xalq çalğı alətləri, estrada, vokal-instrumental, simli alətlər, aşıqlar və s.), rəqs kollektivləri (milli, müasir, bal və s.), solo ifaçılar (bədii qiraətçilər, müxtəlif musiqi alətlərində ifa edən fərdi ifaçılar, solo ifaçılar və s.) iştirak edə bilərlər:

1.1 İfaçıların çıxışlarında folklorumuzdan, dünya və Azərbaycan klassiklərinin, müasir şair və bəstəkarların əsərlərindən istifadə etməklə yanaşı, doğma vətənimizə məhəbbət, torpaqlarımızın azadlığını və bütövlüyünü tərənnüm edən əsərlərə də geniş yer verilməlidir.

2. Müsabiqə - festivalın mütəşəkkil keçirilməsi, o cümlədən Əsasnamənin şərtlərinə uyğun olaraq kollektivlərin və solo ifaçıların arasından fərqlənən namizədləri seçmək məqsədilə yerlərdə münsiflər heyəti yaradılır.

3. Müsabiqə - festival 2 mərhələdə keçirilir.

Müsabiqə - festivalın I mərhələsi zonalar üzrə 15 mart 2019-cu il tarixinədək ali və orta ixtisas təhsili müəssisələrində yaradılmış münsiflər heyətinin rəhbərliyi və bilavasitə

iştirakı ilə yerlərdə aparılır (müəssisədaxili münsiflər heyətinin təşkili və çıxışların hazırlanması zamanı mütəxəssislərə ehtiyac yarandığı təqdirdə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən müvafiq uşaq-gənclər inkişaf mərkəzlərindən nümayəndələr dəvət oluna bilər).

Ali və orta ixtisas təhsili müəssisələrinin tərkibində yaradılmış münsiflər heyəti müvafiq tədris müəssisəsinin bədii-özfəaliyyət kollektivlərinin, solo ifaçıların baxışını keçirərək, müsabiqə - festivalın II mərhələsi üçün namizədləri seçir.

Müsabiqə - festivalın I mərhələsi 2019-cu ilin mart ayında ali və orta ixtisas təhsili müəssisələrinin akt zallarında konsert proqramları ilə yekunlaşır.

4. Müsabiqə - festivalın I mərhələsində müvəffəqiyyətlə iştirak etmiş və müvafiq münsiflər heyəti tərəfindən seçilmiş kollektiv və solo ifaçılar barədə təqdimat II respublika mərhələsində iştirak etmək üçün orta ixtisas təhsili müəssisələri tərəfindən 2019-cu il 18 mart, ali təhsil müəssisələri tərəfindən isə aprelin 2-nə qədər bu qərarla təsdiq edilmiş münsiflər heyətinə təqdim edilir (ünvan: Bakı şəhəri, Gənclər meydanı 3 tel.: (+99412) 497-49-54, Faks: (+99412) 437-32-54, mobil: + (99450) 353-86-04 E-mail: atiahirk@mail.ru; info@atiahi.org )

5. II mərhələ - Respublika mərhələsi 20 aprel 2019-cu il tarixinədək Bakı, Gəncə, Lənkəran, Mingəçevir və Sumqayıt şəhərlərində keçiriləcəkdir (zaman, məkan, iştirakçılar barəsində məlumatlar təhsil müəssisələrinə göndəriləcəkdir).

Respublika müsabiqəsinin qalibləri bu qərarla təsdiq edilmiş Münsiflər heyəti tərəfindən seçiləcəkdir.

## III. Müsabiqə - Festivalın yekunu

1. Münsiflər heyəti:

- II mərhələyə təqdimatla gələn kollektivlərin və solo ifaçıların baxışını keçirir, baxış müsabiqənin qaliblərini seçərkən ifaçıların yüksək yaradıcılıq məharəti ilə yanaşı, musiqi seçimini, onların səhnə mədəniyyəti, geyimlərini və s. nəzərə alır.
- qalibləri müəyyən edir.

2. Kollektiv və solo ifaçıların II mərhələdə iştirakını müvafiq ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri və tələbə həmkarlar ittifaqı komitələri təmin edir.

3. Müsabiqə - Festivalın II mərhələsinin nəticələri məlum olduqdan sonra 2019-cu il may ayının birinci yarısında qaliblərin iştirakı ilə yekun konsert keçirilir.

Yekun konsertin proqramına nömrələrin daxil edilməsi bu qərarla təsdiq edilmiş Təşkilat komitəsinin və Münsiflər heyətinin səlahiyyətinə aiddir.

**IV. Qaliblərin mükafatlandırılması**

1. Respublika mərhələsində müvəffəqiyyətlə iştirak etmiş və qalib adına layiq görülmüş kollektiv və solo ifaçılar Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə diplomu və hədiyyələri ilə təltif edilirlər. Qaliblər münsiflər heyətinin protokolunda qeyd olunur. Protokolda öz əksini tapmış təkliflərə əsasən Təşkilat Komitəsi Müsabiqə-festivalın yekunları haqqında qərarı təsdiq edir. Bu barədə qərar qəbul edildikdən sonra iştirakçılar aşağıdakı janrlar üzrə mükafatlandırılacaqlar:

- milli və dünya xalqlarının çalğı alətləri - I, II, III yerlər
- xor kollektivləri - I, II, III yerlər
- rəqs (milli) - I, II, III yerlər
- rəqs ( müasir) - I, II, III yerlər
- bədii qiraət (klassik və müasir ədəbiyyat nümunələri) - I, II, III yerlər
- vokal (klassik, müasir və bəstəkar mahnıları) - I, II, III yerlər (9 yer)
- muğam - I, II, III yerlər
- xalq mahnıları - I, II, III yerlər

Azərbaycan müəllimi.- 2019.- 22 fevral.- S.4.